Support for Improvement in Governance and Management

A joint initiative of the OECD and the EU, principally financed by the EU

SIGMA

# Icmal 19

Avqust 2011

## Dövlət Satınalmaları

# Çərçivə Sazişləri

MÜNDƏRİCAT


- Direktivə görə çərçivə sazişi nə deməkdir?
- Çərçivə sazişləri bütün satınalmalar zamanı münasibdirmi?
- Çərçivə sazişləri barədə tanıtım AİRJ-da nə vaxt və necə həyata keçirilməlidir?
- Çərçivə sazişinin satın alınması zamanı hansı prosedurlar tətbiq edilir?
- Çox-təchizatçı çərçivə sazişi üzrə neçə iqtisadi operator təyin edilir?
- Yeni satınalan təşkilatlar və yeni iqtisadi operatorlar çərçivə sazişi tərtib edildikdən sonra ona cəlb edilə bilərlərmi?
- Çərçivə sazişinin davamiyyəti nə qədərdir?
- Çərçivə sazişində nə kimi məsələlər əhatə edilir?
- Yalnız bir iqtisadi operatoru (tək-təchizatçı saziş) olan çərçivə sazişi altında müqavilələr necə təltif edilir?
- Bir neçə iqtisadi operatoru (çox-təchizatçı saziş) olan çərçivə sazişi altında müqavilələr necə təltif edilir?
- İqtisadi operatorlara bildiriş göndərmək, durğunluq müddətini gözləmək və müqavilənin təltif olunması barədə bildirişi dərc etdirmək lazımdırmı?



EUROPEAN COMMISSION

OECD BETTER POLICIES FOR BETTER LIVES

www.sigmaweb.org

This document has been produced with the financial assistance of the European Union. The views expressed herein can in no way be taken to reflect the official opinion of the European Union, and do not necessarily reflect the views of the OECD and its member countries or of beneficiary countries participating in the SIGMA programme.

**Giriş:** Bir sıra Aİ üzv ölkələrində, Skandinaviya ölkələri, Fransa və Böyük Britaniya da daxil olmaqla çərçivə sazişlərindən istifadə qaydası üzrə sınaqdan çıxmış ənənə vardır. Bu satınalma metodu ümumiyyətlə işlərin, mal-materialın və ya xidmətlərin satın alınması üçün müəyyən bir müddət ərzində iş imkanlarını reklam edən və sonradan bir və ya daha çox iqtisadi operatorlarla müqavilə və ya digər razılaşma imzalayan satınalan təşkilatı (və ya təşkilatlar) daxil edir.

Çərçivə sazişi altında işlər, mal-material və ya xidmətlərin tipi Direktivdə verilmiş subyektə uyğun olduqda və çərçivə sazişi altında həyata keçirilməli satınalmaların ümumi hesablanmış dəyəri Aİ müvafiq maliyyə həddindən yuxarı olduqda (Bax *Satınalma İcmalı 5 – Maliyyə Hədlərinin Başa Düşülməsi*), çərçivə sazişi Avropa İttifaqının Rəsmi Jurnalında (AİRJ) elan edilir və iqtisadi operatorlara Direktivdə verilmiş standart satınalma prosedurlarının birindən istifadə etməklə çərçivə sazişi təltif edilir.

Çərçivə sazişində müəyyən edilən tipə aid iş, material və ya xidmət tələbi meydana çıxdıqda həmin çərçivə sazişinin benefisiarı hesab edilən satınalan təşkilat növbəti tender prosesini davam etdirməyə ehtiyac duymadan öz tələbini təxirə sala bilər.

Çərçivə sazişlərinin ümumi xüsusiyyəti çərçivə sazişi boyunca təchiz ediləsi cəmi məbləğin mütləq dəqiqliyinin olmamasıdır. Çərçivə sazişi bu baxımdan razılaşmanın əvvəlində konkret satınalma həddinə sadiq qala bilməyən satınalan təşkilatın təchizatçılarına müəyyən qədər elastik olmaq imkanını verir. Çərçivə sazişləri təchizatçı qismində bir və ya daha çox satınalan təşkilat və bir və ya daha çox iqtisadi operatorları özündə cəmləşdirə bilər.

Çərçivə sazişlərindən adətən mərkəzi satınalma orqanları ya öz adlarından çıxış etməklə, ya da bir neçə satınalan təşkilatın adından çıxış etməklə istifadə edirlər. Bu məsələ ilə əlaqədar *Satınalma İcmalı 20 – Mərkəzi Satınalma Orqanları* adlı başlığa nəzər yetirə bilərsiniz.

Satınalmanın çərçivə metodunun arxasında duran məntiqi əsaslandırma həm təchizat xərcləri həm də təchizat prosesində qənaət əldə etməkdən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, nəzərəçarpacaq qənaətə əsasən çərçivə sazişinin tətbiqi ilə həyata keçirilən satınalma mərkəzləşdirilmiş satınalma və elektron satınalma ilə kombinə edildikdə nail olmaq mümkündür (bax *Satınalma İcmalı 17 – Elektron Satınalma*).

2004/18 Direktivindən (Direktiv) əvvəl dövlət satınalmaları üzrə Direktivdə çərçivə razılaşmalarının yaradılması və idarə edilməsindən bəhs edən spesifik müddəalar mövcud deyildi. Bu metodlardan istifadə edən üzv dövlətlər düşünürdülər ki, spesifik müddəalara ehtiyac yoxdur belə ki, mövcud Direktiv kifayət qədər müddəalardan ibarət

idi. Buna baxmayaraq AK səviyyəsində bəzi çərçivələrin idarə edilməsinə və şəffaflığın və spesifik müddəaların (bəzi üzv dövlətlərin çərçivələrdən istifadə olunmasına icazə verməsini, digərlərində buna icazə verilməməsini nəzərdə tutan) olmamasına dair narahatçılıqlar duyulur.

### Direktivə görə çərçivə sazişi nə deməkdir?

"Çərçivə" termini bir sıra kommersiya və satınalma razılaşmalarını təsvir etmək üçün istifadə edilə bilər. Bununla belə, Dİrektivdə "çərçivə sazişi" adlı təyin mövcuddur və bu o çərçivə sazişi tipidir ki, Satınalma İcmalının qalan hissəsində əhatə edilmişdir.

Direktivin 32-ci Maddəsi çərçivə sazişlərinin tərtib və idarə edilməsi qaydalarını müəyyən edir. Üzv dövlətlər bu müddəaların qəbul edilməsi zamanı seçim edə bilərlər, bu o deməkdir ki, Direktivin şərtlərinə əsasən çərçivə sazişlərinin istifadəsi məcburi deyildir. Buna baxmayaraq, əgər onlardan istifadə edilirsə, bu zaman Direktivin müvafiq müddəaları tətbiq edilməlidir.

**Direktivin 11(5) Maddəsində çərçivə sazişi belə təyin edilir:**

*"bir və ya daha çox satınalan təşkilat və bir və ya daha çox iqtisadi operator arasındakı razılaşmadır ki, bunun məqsədi verilmiş vaxt limiti ərzində təltif olunası, xüsusilə də qiymət və lazım gəldiksə isə kəmiyyət nəzərdə tutulan müqavilələrin idarə edilməsi şərtlərini müəyyən etməkdir."*

Bu o deməkdir ki, çərçivə sazişini tərtib edən satınalan təşkilat çərçivə sazişini elan edir və iqtisadi operatorları çərçivəyə təyin olunmaq üçün dəvət edir. Satınalan təşkilat AİRJ-da elan yerləşdirir və tenderlərin seçilməsi və qiymətləndirilməsi üçün Direktivdə müəyyən edilən standart prosedurlardan birini istifadə edir. Seçim məlumatları və tender təkliflərinin qəbul edilməsi və qiymətləndirilməsindən sonra satınalan təşkilat çərçivə sazişini bir və ya bir neçə iqtisadi operatora təltif edir. Satınalan təşkilat və çərçivə üzvləri daha sonra çərçivə sazişinə girirlər ki, bu saziş çərçivə üzvlərinə müqavilələrin verilmə üsulunu və həmin təltif edilmə zamanı tətbiq edilən şərtləri idarə edir.

Çərçivə sazişlərinin əsas üstünlüyü ondadır ki, AİRJ-da yalnız bir müqavilə bildirişi və bir Aİ satınalma prosesi dərc edilir. Bu həm çərçivə sazişinin tərtib edilməsini, həm də öz növbəsində müqavilənin təltif edilməsini əhatə edir.

Çərçivə sazişi altında təltif edilən müqavilələr ya çərçivə üzvlərinə növbəti konkurs aparılmadan birbaşa verilir ya da yalnız çərçivə üzvləri arasında mini-konkurslar aparılmaqla verilir. Çərçivə sazişi altında müqavilələrin təltif olunması üçün AİRJ-da təkrar elan yerləşdirilməsinə və ya tam Aİ satınalma prosesinin aparılmasına zərurət yoxdur. Bu, xüsusilə də mərkəzləşmiş satınalma və elektron satınalma ilə kombinə edildikdə, satınalma üzrə vaxt cədvəllərini sürətləndirdiyindən və səmərəliliyi artıra bildiyindən, eləcə də həm satınalan təşkilatın həm də iqtisadi operatorların xərclərini azaltdığından əsas üstün cəhət kimi qeyd olunur.

**Qeyd:** Bəzi üzv dövlətlərdə satınalan təşkilatlar mövcud strukturdan (əgər mövcud olan struktur nəzərdə tutulan satınalmanı əhatə edirsə) istifadə etmək məcburiyyətindədirlər. Digər üzv dövlətlərdə isə bu kimi məcburiyyət yoxdur. Bu yerli qanun və siyasətə aid bir məsələ olacaqdır.

Çərçivə sazişləri adətən birdən daha çox satınalan təşkilatın istifadəsi məqsədilə tərtib olunur ki, bu da ya aparıcı təşkilat yaxud da mərkəzi satınalma orqanı kimi fəaliyyət göstərən satınalan təşkilat üçün nəzərdə tutulur. Bu halda şəffaflıq prinsipinin tələblərinə cavab vermək üçün Avropa Komissiyası (AK) düşünür ki, çərçivə sazişinin tərəfi hesab edilən satınalan təşkilatlar AİRJ-da dərc olunan müqaviləyə dair bildirişdə kifayət qədər aydın şəkildə müəyyən edilməlidirlər. AK bu məsələ ilə əlaqədar özünün Çərçivə Sazişləri ilə bağlı İzahedici Qeydlərində şərhlər vermişdir[1].

[1] CC/2005/03_rev 1 of 14.7.2005

……………. çərçivə sazişləri yalnız "çərçivə sazişinə ilkin olaraq tərəflər hesab edilən satınalan təşkilatlar və iqtisadi operatorlar arasında" tətbiq edilə bilər. Bir neçə satınalan təşkilat tərəfindən çərçivə sazişinin istifadəsi mütləq olduqda, bu zaman bu satınalan təşkilatlar açıq şəkildə müəyyən edilməlidirlər[2] (müqaviləyə dair bildirişdə onların adlarını birbaşa bildirişin özündə çəkməklə, yaxud digər sənədlərə istinad etməklə, məsələn spesifikasiyalar və ya satınalan təşkilatların birindən əldə edilmiş siyahı və s.). Başqa sözlə desək, çərçivə sazişləri qapalı sistemdən təşkil olunmuşdur ki, bura heç kim nə satınalan nə də təchizatçı kimi girə bilməz.

## Çərçivə sazişləri bütün satınalmalar zamanı münasibdirmi?

Çərçivələr heç də bütün satınalma tipləri üçün münasib ola bilməz. Satınalan təşkilatlar çərçivənin satınalma üzrə məqsədəuyğun, iqtisadi və səmərəli vasitələri təmin edəcəyi barədə əmin olmalıdırlar.

Çərçivə sazişlərinin ən münasib tətbiq halı satınalan təşkilatın işlər, xidmətlər və ya mal-material üzrə təkrar tələbi lakin qeyri-müəyyən kəmiyyəti olduğu təqdirdir.

Çərçivə sazişinin müvafiqliyini dəyərləndirmək məqsədilə satınalan təşkilatlar çərçivə sazişlərinin müsbət və mənfi cəhətlərini, çərçivə sazişlərinin müxtəlif tiplərini, onların tərtib olunma qaydalarını və təcrübədə istifadə qaydalarını anlamalıdırlar.

[2] Məsələn, çərçivə sazişinin "topdansatış diler" əvəzinə araçı diler qismində çıxış edən mərkəzi satınalma orqanı tərəfindən bağlanması halında müqavilənin müzakirədə olan Üzv Dövlətlərində təsis edilmiş "satınalan təşkilatlar" tərəfindən istifadə edilə bilməsinin qeyd edilməsi qənaətbəxş deyildir. Faktiki olaraq bu cür qeydlə sazişin tərəfləri olan təşkilatları, dövlət qanunu ilə idarə edilən təyinə təşkilatın müvafiqliyini aydınlaşdırarkən ortaya çıxan çətinliklərə görə müəyyən etmək mümkün ola bilməz. Digər tərəfdən maraqlı satınalan təşkilatların yerində müəyyən edilməsinə imkan verən təsvir, məsələn "x əyalətin və ya y rayonun bələdiyyələri", 32(2) Maddəsinin müddəasının ikinci abzasının yerinə yetirilməsini mümkün edir.

**Çərçivə sazişinin bəzi nümunələri:**

- Bir dövlət idarəsi dəftərxana ləvazimatı üçün üç təchizatçı ilə çərçivə sazişinə girir.
- Dörd qonşu yerli təşkilat yollara xidmət göstərilməsi üçün bir iqtisadi operatorla çərçivə sazişinə girir.
- 10 səhiyyə orqanının adından çıxış edən mərkəzi satınalma orqanı təcili yardım maşınlarının təchizatı üçün dörd təchizatçı ilə çərçivə sazişinə girir.

## Çərçivə sazişləri barədə tanıtım AİRJ-da nə vaxt və necə həyata keçirilməlidir?

Çərçivə sazişi, əgər həmin sazişin altında ediləsi bütün satınalmaların hesablanmış qiyməti müqavilənin (ƏDV çıxmaq şərti ilə) həmin tipi üçün müvafiq Aİ maliyyə həddini aşırsa, bu zaman bu saziş AİRJ-da müqaviləyə dair bildiriş dərc etməklə elan edilməlidir.

Müqaviləyə dair bildiriş çərçivə sazişinin tərtib edilməsi üçün prosesin əvvəlində dərc edilir. AİRJ-nın müqaviləyə dair bildirişinin standart formasından istifadə edilir və çərçivələr bölməsi digər bütün müvafiq bölmələrə əlavə olaraq tamamlanmalıdır. Bunun üçün bax: *Satınalma İcmalı 6 – Tanıtım*

Çərçivə sazişi tərtib edildikdən sonra AİRJ-da çərçivə sazişi altında müqavilənin təltif edilməsindən qabaq dərc edilməsi üçün artıq heç bir tələb yoxdur.

## Çərçivə sazişinin satın alınması zamanı hansı prosedurlar tətbiq edilir?

32(2)-ci Maddədə çərçivə sazişinin satın alınması zamanı dörd əsas müsabiqə prosedurlarından hər hansı birinin istifadə edilməsi təmin edir. Satınalma prosedurları barədə daha ətraflı məlumat üçün bax: *Satınalma İcmalı 10 – Dövlət satınalma prosedurları hansılardır və onlar nə zaman istifadə edilə bilər?*

Çərçivə sazişi altında müqavilələrin təltif edilməsinə gəldikdə çərçivə sazişinə xas müddəalar tətbiq edilir.

**Praktiki qeyd**

Çərçivə sazişinin satın alınması üçün dörd əsas müsabiqə prosedurlarından hər hansı birinin istifadəsinin mümkünlüyünə baxmayaraq, praktikada açıq və məhdud prosedurlar daha çox istifadə edilir. Bu ona görədir ki, çərçivələr ümumiyyətlə sadə əmtəənin və qeyri-kompleks təchizatların satın alınması üçün daha münasibdir və açıq və məhdud prosedurların ən münasib prosedurlar olması anlamına gətirir.

Çərçivə sazişinin çərçivəyə daxil olan işlər, xidmətlər və ya mal-material təchizatı üzrə ixtisaslaşmış və seçilmiş iqtisadi operatorlardan ibarət siyahı olmadığını başa düşmək vacibdir. Bu ondan ötəki bir şeydir. Çərçivə sazişi ilə təltif olunmaqdan ötəri iqtisadi operatorlar həm ixtisaslı olmalı, həm də tender təkliflərini təqdim etməlidirlər ki, bunlar da öz növbəsində satınalma təşkilatları tərəfindən qiymətləndirilir. Bu çərçivə sazişi altında gələcək təltiflər üçün baza təmin edən tenderlərdir. Təltif edilmə kriteriyası və çərçivə üzrə təyinat ya ən aşağı qiymət ya da iqtisadi cəhətdən ən üstün tender təklifi ola bilər.

### Çox-təchizatçı çərçivə sazişi üzrə neçə iqtisadi operator təyin edilir?

Satınalan təşkilat birdən çox iqtisadi operator təyin etmək istədikdə və "çox-təchizatçı" çərçivə sazişi tərtib etdikdə, iqtisadi operatorların minimum sayı üç olmalıdır (bir şərtlə ki, üç müvafiq iqtisadi ixtisaslaşmış iqtisadi operator olsun).

Çox-təchizatçı çərçivə sazişi üzrə təyin edilən iqtisadi operatorların maksimum sayı üçün qanunla müəyyən edilmiş məhdudiyyət yoxdur. Təyin olunası iqtisadi operatorların təklif olunan sayı və ya maksimum sayı, bununla belə AİRJ-da müqaviləyə dair bildirişdə qeyd olunmalıdır.

**Praktiki qeyd**

Çərçivədə iştirak edə biləcək iqtisadi operatorların sayında qanunla müəyyən edilmiş məhdudiyyət olmamasına baxmayaraq bəzi nəzərə alınası praktiki məsələlər vardır. Məsələn, çox sayda iqtisadi operatorların təyin edilməsi iqtisadi operatorların iştirakına mane ola bilər çünki çərçivədəki iş payı gözləndiyindən daha kiçik ola bilər.

Bundan əlavə, mini-konkurs prosesi tətbiq edilirsə (bax aşağıda), ikinci mərhələdə çərçivədəki bütün iqtisadi operatorları müsabiqədə iştirak etmələri məqsədilə dəvət etmək zərurəti yarana bilər. İqtisadi operatorlarda yenidən çərçivədə iştirak edəcək tərəflərin say çoxluğu səbəbindən iştirak etmək həvəsi sönə bilər. Yüksək səviyyəli administrasiyanın cəlb edildiyi çərçivəni idarə edən satınalan təşkilatın qarşısında həmçinin praktiki məsələ durur.

Satınalan təşkilat bazarı, xüsusi çərçivə sazişi üzrə iqtisadi operatorların sayının müvafiq olmasına dair qərar vermək üçün hazırlıq mərhələsində onun tələbləri və resurslarını dəqiqliklə qiymətləndirməlidir.

## Yeni satınalan təşkilatlar və yeni iqtisadi operatorlar çərçivə sazişi tərtib edildikdən sonra ona cəlb edilə bilərlərmi?

Xeyr, çərçivə sazişinin tərəfləri olan satınalan təşkilatlar və iqtisadi operatorlar çərçivə boyunca dəyişməz qalırlar. Yeni satınalan təşkilatlar və ya yeni iqtisadi operatorlar çərçivə tərtib edildikdən sonra ona cəlb edilə bilməzlər.

## Çərçivə sazişinin davamiyyəti nə qədərdir?

Çərçivə sazişinin davamiyyəti ümumiyyətlə dörd ildən artıq ola bilməz, lakin az ola bilər. Direktivdə müəyyən edilir ki, davamiyyət yalnız “müstəsna hallarda dörd ildən artıq ola bilər ki, buna da xüsusilə çərçivə sazişinin məzmunu” ilə haqq qazandırmaq olar.

**AK bu məsələ ilə əlaqədar aşağıdakı şərhləri təqdim etmişdir:**

"…………. çərçivə sazişləri "müstəsna hallarda xüsusi olaraq çərçivə sazişinin məzmunu ilə əsaslandırıldıqda" uzadıla bilər. Beləliklə, müzakirə obyekti olan müqavilə üzrə effektiv müsabiqə təmin etmək məqsədilə uzadılmış müddətə haqq qazandırıla bilər o halda ki, müqavilənin icra edilməsi üçün dörd ildən artıq amortizasiya müddəti tələb olunur. Bu ondan irəli gəlir ki, dövlət satınalmaları sektorunda effektiv müsabiqənin inkişaf etdirilməsi bu məsələ ilə məşğul olan Direktivin məqsədlərindən biridir ki, bu da 17-ci presedent hüququnda və Klassik Direktivin ikinci deklarativ hissəsində ilə qeyd edilir. Bundan əlavə, qeyd edilməlidir ki, dövlət satınalmalarına dair direktivlər hüquqi vakuumda fəaliyyət göstərmir – onlara həm Komissiya həm də yerli müsabiqə qaydaları tətbiq edilir.

AK İzahedici Qeydi – Çərçivə Sazişləri – Klassik Direktivin 14.7.2005 tarixli 2.1 paraqrafı CC/2005/03_rev 1

Müqavilənin müddəti barədə qərar verən zaman müəyyən bir bazarın xüsusiyyətlərinin və planlaşdırılan satınalmaların düzgün başa düşülməsi əhəmiyyətli xarakter daşıyır. Müsabiqənin potensial olaraq müəyyən bir müddətə qədər məhdudlaşdırılması məqsədilə daha uzun müddətli razılaşmaların faydalarını nizamlayarkən azaldılmış satınalma xərcləri və daha sürətli satınalmalar kimi ehtiyacların dəqiq nəzərə alınması lazımdır. Məsələn, İT üçün nəzərdə tutulan konkret təchizatın çərçivə sazişinin daha qısamüddətli olması daha münasib olardı çünki bu bazarda sürətli texnoloji dəyişikliklər (məhsulların tez bir zamanda köhnəlməsi nəzərdə tutulur) və tez-tez yeni daxilolmalar müşahidə edilir.

## Çərçivə sazişində nə kimi məsələlər əhatə edilir?

Milli qanunvericilikdə çərçivə sazişinin məzmununun müəyyən edilməsi ehtimalının olmasına baxmayaraq, bu Direktivdə müəyyən edilməmişdir. Çərçivə sazişinə tipik olaraq bunlar daxildir: tərəflər, müddət, predmet, çərçivə altında təltif edilməli müqavilələrə tətbiq edilən müqavilə şərtləri, gələcək ("mini") müsabiqələr üçün təxirə salınmaların və ya razılaşmaların kriteriyası və tətbiq olunası kriteriyalar da daxil olmaqla müqavilələrin necə təltif olunması və gələcək müqavilələr üçün tender xərcləri və xərclərin hesablanması metodologiyası.

**Yalnız bir iqtisadi operatoru (tək-təchizatçı saziş) olan çərçivə sazişi altında müqavilələr necə təltif edilir?**

Çərçivə sazişi tək-təchizatçı saziş olduqda Direktivdə çərçivə sazişində verilmiş şərtlər daxilində müqavilələrin təltif olunması təmin edilmişdir. Bu o deməkdir ki, satınalan təşkilat müqaviləni iqtisadi operatora birbaşa olaraq müsabiqəsiz təltif edir. İqtisadi operatorun çərçivə sazişinə təyin edildiyi orijinal şərtlərə heç bir əsaslı düzəliş edilə bilməz və çərçivə qeyri-münasib qaydada və ya müsabiqənin qarşısını alacaq, onu qadağa edəcək və təhrif edəcək şəkildə istifadə edilə bilməz.

**Bir neçə iqtisadi operatoru (çox-təchizatçı saziş) olan çərçivə sazişi altında müqavilələr necə təltif edilir?**

Saziş birdən artıq iqtisadi operatorla bağlandıqda satınalan təşkilatın qarşısında seçim olur. Müqaviləni təltif etməyin iki yolu vardır:

- Versiya 1: müsabiqəni təkrar elan etmədən çərçivə sazişində əvvəlcədən müəyyən edilmiş şərtləri tətbiq etməklə müqavilənin birbaşa seçilmiş iqtisadi operatora verilməsi; və ya
- Versiya 2: çərçivədə iştirak etməkdən ötəri ixtisaslaşmış bütün iqtisadi operatorları dəvət etməklə növbəti müsabiqə prosedurunun idarə edilməsi (mini-müsabiqə).

Çox-təchizatlı çərçivə sazişini elan və tərtib edərkən satınalan təşkilatlar müqavilələrin təltif olunma qaydasını aydın şəkildə qeyd etməlidirlər və çərçivə sazişinə müqavilənin təltif olunma prosesinin aparılma qaydası daxil edilməlidir.

**Versiya 1 – növbəti müsabiqə keçirilmədən iqtisadi operatora müqavilənin verilməsi:** Satınalan təşkilat birinci versiyadan istifadə etmək və müqaviləni çərçivədəki iqtisadi operatorlardan birinə birbaşa vermək istədikdə:

- Çərçivə sazişində müəyyən edilmiş şərtlərə görə hərəkət etməlidir;
- Tərəflər heç bir halda çərçivə sazişində müəyyən edilmiş şərtlərə əsaslı dəyişiklik etməməlidirlər;
- Müqavilə qeyri-münasib şəkildə təltif edilməməlidir və ya müsabiqə prosesinin qarşısını almamalı, onu qadağan etməməli və ya təhrif etməməlidir.

Təcrübədə müqavilə çərçivə sazişinin şərtlərindən asılı olaraq bir neçə yolla təltif edilə bilər. Məsələn, təsnifata görə müqavilə adətən ilkin olaraq birinci seçilən iqtisadi operatora verilir; müqavilələrin təltif edilməsi iqtisadi operatorlar arasında dövr edə bilər; və ya iqtisadi operatorlara ümumi həcmin əvvəlcədən razılaşdırılmış faizi təltif

edilə bilər və ya onlara çərçivə sazişi altında bir neçə müqavilə təltif edilə bilər. İstənilən metodun istifadəsi zamanı diqqətli olmaq lazımdır ki, bu metod şəffaf olsun və çərçivədəki iqtisadi operatorlara eyni-hüquqlu münasibət təmin olunsun.

**Versiya 2 – Mini-müsabiqənin aparılması ilə müqavilənin təltif edilməsi:** Satınalan təşkilat mini-müsabiqənin ikinci versiyasından istifadə edə bilər. Bu proses spesifikasiyada istinad edilən şərtlərin təqdim edilməsinə və ya mövcud şərtlərin daha dəqiq şəkildə formalaşmasına imkan verir. Bu prinsipin predmeti olaraq qalmaqdadır ki, tərəflər bu prinsipə görə çərçivə sazişində müəyyən edilmiş şərtlərə heç bir halda əsaslı dəyişiklik edə bilməzlər.

Çərçivədəki müqaviləni icra etmək iqtidarında olan bütün iqtisadi operatorlar eyni-hüquqlu münasibəti, qeyri-diskriminasiyanı və şəffaflığı təmin edən əsasla müsabiqədə iştirak etmək üçün dəvət edilirlər.

32(4) Maddədə mini-müsabiqələrin aparılması üçün fundamental tələblər müəyyən edilmişdir:

- Satınalan təşkilat müqaviləni icra etmək iqtidarında olan iqtisadi operatorlara məsləhət verməlidir
- Satınalan təşkilat iqtisadi operatorlara öz məsləhətini yazılı şəkildə etməlidir
- Tenderlərin geri qaytarılması üçün verilmiş vaxt məhdudiyyəti spesifik tenderlərin təqdim edilməsi üçün kifayət qədər uzun olmalıdır (müqavilənin predmetinin mürəkkəbliyi və tenderlərdə verilən zəruri vaxt kimi faktorlar da nəzərə alınmaqla)
- Tender təklifləri yazılı şəkildə təqdim edilməlidir
- Tender təkliflərinin məzmunu cavab üçün nəzərdə tutulmuş vaxt bitənədək məxfi olaraq qalmalıdır
- Müqavilə ən yaxşı tender təklifini təqdim edən iddiaçıya çərçivə sazişinin spesifikasiyalarında müəyyən edilmiş təltif edilmə kriteriyası əsasında təltif edilməlidir
- Müqavilə qeyri-münasib qaydada təltif edilməməli və ya müsabiqənin qarşısını almamalı, onu qadağan etməməli və ya təhrif etməməlidir

Qanunla müəyyən edilmiş vaxt məhdudiyyətləri yoxdur və tenderdə iştirak etmək və tenderi təqdim etmək üçün iqtisadi operatorların dəvət olunması üçün təfərrüatlı şəkildə verilmiş qaydalar yoxdur. Bu o demək deyildir ki, proses qeyri-müəyyən və ya qeyri-formalaşmış şəkildə qəbul edilməməlidir. Müqavilənin təltif olunması prosesin şəffaf şəkildə idarə edilməsi üçün tələblər (eyni-hüquqlu münasibəti və qeyri-diskriminasiyanı təmin edən) də daxil olmaqla, ümumi hüquqi prinsiplərə və Konvensiyanın prinsiplərinə uyğun olaraq aparılmalıdır. Mini-müsabiqələrin aparılması zamanı elektron auksionların tətbiq edilməsinə yol verilir.

## İqtisadi operatorlara bildiriş göndərmək, durğunluq müddətini gözləmək və müqavilənin təltif olunması barədə bildirişi dərc etdirmək lazımdırmı?

Müqaviləni təltif edən satınalan təşkilat çərçivə sazişi tərtib edilərkən ənənəvi bildiriş və durğunluq tələblərinə riayət etməlidir. Çərçivə sazişi altında təltif olunmalı müqavilələrin hesablanmış ümumi dəyəri müvafiq maliyyə həddini aşdıqda müqavilənin təltif edilməsi barədə standart bildiriş AİRJ-da dərc edilməlidir. Bax *Satınalma İcmalı 6 – Tanıtım*.

Çərçivə sazişi altında təltif edilən müqavilənin təltif edilməsi (təxirə salınması) barədə Direktivdə bildirişin dərc edilməsinə dair məcburiyyət yoxdur. Müqavilə təltif edilərkən durğunluq tələblərinə dair bildirişin verilməsi və bu tələblərə əməl olunması yerli qanunvericilikdən asılı olaraq dəyişir. Bu situasiyanı əhatə edən Hüquqların Müdafiəsi Direktivində verilmiş müddəalara azaltmalar daxildir ki, bu da o deməkdir ki, hər bir üzv dövlət bu azaltmaların qəbul edilməsi üzrə sərbəst qərar verə bilər.

### Praktiki qeyd – Çərçivələrin idarə edilməsi

Çərçivə sazişini idarə edən satınalan şirkətlər çərçivə sazişlərini proaktiv şəkildə idarə etməli və nəzarətdə saxlamalıdırlar. Məsələn, satınalan şirkətlərin elan edildiyi kimi yalnız çərçivənin həcmi daxilində satın ala bilmələrini təmin etmək və təltif edilmə metodunun çərçivə sazişi ilə və Direktivin müddəaları ilə uyğunluğunu təmin etmək mühümdür.

Bununla yanaşı çərçivə sazişlərinin müsabiqəni təhrif etməməsinin və onların qeyri-münasib istifadə olunmamasının təmin edilməsinə diqqət yetirilməlidir.

## Əlavə oxu materialı:

- Avropa Komissiyasının İzahedici Qeydi – Çərçivə Sazişləri – 14.7.2005 tarixli Klassik Direktiv CC/2005/03_rev 1
- Dünya Bankı – Çərçivə Sazişlərinə Giriş